MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 78.02; 781,07.**
**ORCID: 0009-0007-2016-1652**
**https://doi.org/10.52094/ZKPX6086**

**Toğrul Mirnazim oğlu Əsədullayev**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**mirtoto@mail.ru**

# ÜZEYİR HACIBƏYLİ YARADICILIĞINDA MİLLİ İFAÇILIQ SƏNƏTİ

**Xülasə:** Təqdim olunan məqalədə dahi bəstəkar, Azərbaycan professional musiqi mədəniyyətinin klassiki Üzeyir Hacıbəylinin yaradıcılığında milli ifaçılıq sənətinin təşəkkülü və inkişafı məsələlərindən bəhs olunur, onun bu sahədəki rolu araşdırılır. Məqalədə Ü.Hacıbəylinin ifaçılıq sənəti ilə bağlı fikirləri və irəli sürdüyü konsepsiyalar, aşıq və muğam ifaçılıq sənətinə olan baxışları işıqlandırılmışdır. Dahi musiqişünasın yaradıcılığında xalq musiqisinə əsaslanması, milli ifaçılıq sənətinin xüsusiyyətlərindən məharətlə istifadə etməsi məsələlərinin araşdırılması məqalənin əsas məzmununu təşkil edir. Məqalənin elmi yeniliyi Ü.Hacıbəylinin elmi-publisistik məqalələrinə əsaslanaraq, onun milli ifaçılıq sənətinə olan münasibətinin işıqlandırılmasıdır. Ü.Hacıbəylinin milli ifaçılıq sənətinə olan baxışlarının və fikirlərinin müəyyənləşdirilməsi isə məqalənin elmi əhəmiyyətini təşkil edir.

**Açar sözlər:** Üzeyir Hacıbəyli, bəstəkar, milli ənənələr, ifaçılıq sənəti, aşıq yaradıcılığı, muğam.

Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyli öz yaradıcılığında cəsarətli novator mövqeyindən çıxış etmiş və milli musiqi mədəniyyətimizin inkişafında əhəmiyyətli dönüş yaratmışdır. Dünya klassik musiqi ənənələrini mənimsəyərək milli xalq incəsənətinin xüsusiyyətləri ilə üzvi şəkildə qovuşduran Ü.Hacıbəyli bu zəmin əsasında yeni professional musiqi üslubunun təməlini qoymaqla yanaşı, milli ifaçılıq sənətinin də simasının qorunub saxlanılmasına və təkmilləşərək inkişaf etməsinə təsir göstərmişdir.

XXI əsrin prizmasından yanaşdıqda, Üzeyir Hacıbəylinin təfəkkür tərzinin milli zəminə əsaslanması, məqsədyönlü fəaliyyəti və tükənməz ideyaları sayəsində Azərbaycan milli musiqi mədəniyyətinin Şərq və Qərb arasında körpü

kimi formalaşdırılması xüsusilə vurğulanmalıdır. Ü.Hacıbəylinin uzaqgörən yanaşmaları milli ifaçılıq sənətinin də inkişafına təsir etmiş və onun gələcək inkişaf yollarını, təkmilləşərək yeni məcrada şaxələnməsini müəyyənləşdirmişdir. Ü.Hacıbəyli böyük potensiala malik olan xalq musiqisinin parlaq və özünəməxsus xüsusiyyətlərini ümumavropa formaları ilə uzlaşdırmağa nail olmaqla yanaşı, həm də milli ifaçılıq ənənələrinin də mükəmməlliyini diqqət mərkəzində saxlayırdı. Onun maarifçilik və publisistik fəaliyyətində milli ifaçılıq sənəti ilə bağlı məsələləri araşdırması və müntəzəm şəkildə məqalələrində işıqlandırması Ü.Hacıbəylinin dərinliklərə nüfuz edərək, ən incə məqamları mükəmməl surətdə öyrənməyi ilə bağlı idi.

Milli ifaçılıq sənətinə münasibətdə Üzeyir bəyin yanaşması bir neçə istiqamətdə özünü göstərir. Belə ki, muğam sənəti, aşıq yaradıcılığı, eləcə də xanəndəlik sənəti, instrumental ifaçıların düzgün istiqamətləndirilməsi ilə bağlı fikirləri Üzeyir Hacıbəylinin məqalələrinin əsas məzmununu təşkil etmişdir. Milli ifaçılıq sənətinin püxtələşməsi ilə bağlı inkişaf yoluna Ü.Hacıbəyli “Leyli və Məcnun” operasından başlamış və çoxşaxəli yaradıcılıq fəaliyyətinin müəyyən mərhələlərində dəfələrlə müxtəlif və aktual əhəmiyyət kəsb edən bu məsələləri geniş məcrada işıqlandırmışdır.

Azərbaycan mədəniyyətində professional ifaçılıq sahəsinin yeni janr və formalarının mənimsənilməsi mərhələsi XX əsrin əvvəllərində məhz opera janrının yaranması ilə başlanmışdır. Ü.Hacıbəylinin 1908-ci ildə yazdığı “Leyli və Məcnun” operası Azərbaycanda opera janrının təməlini qoymaqla yanaşı, həm də muğam ifaçılıq sənətinin yeni səpkidə inkişafına təsirini göstərdi. “Leyli və Məcnun”da ənənəvi ariyaların və ariozoların əvəzinə xalq yaradıcılığının klassik nümunələri olan muğamlardan istifadə edilməsi professional ifaçılıq sənətinə yeni nəfəs gətirdi. Xalq yaradıcılığının klassik nümunələri olan muğamlardan musiqi materialı kimi istifadə etməyi nəzərdə tutan Ü.Hacıbəyli eyni zamanda ifaçılıq sahəsinin inkişafını professional bəstəkar yaradıcılığına yönəltsə də, ənənəvi ifa tərzinin də qorunmasına çalışırdı. Milli ifaçılıq sənətinin inkişafına xüsusi diqqətlə yanaşan Ü.Hacıbəyli “Muğamat və xalq mahnılarının ifası haqqında”, “Azərbaycan musiqi həyatına bir nəzər”, “Vəzifəyi-musiqiyyəmizə aid məsələlər” adlı məqalələrində bu məsələləri daim işıqlandırır və münasibətini əsaslandırılmış şəkildə bildirirdi. Onun ifaçılıq sahəsinin inkişafı ilə bağlı düşüncələri həm müəllifi olduğu musiqi əsərlərində, həm də

publisistik yazılarında əks olunaraq, dahi bəstəkarın yaradıcı təfəkkürünün zənginliyini nümayiş etdirir.

Muğam ifaçılıq sahəsinə Üzeyir bəy xüsusi diqqətlə yanaşırdı və bu da təsadüfi deyildir. Belə ki, Ü.Hacıbəylinin "Leyli və Məcnun"dan başlayaraq, muğam operalarında muğam ifaçılığının xüsusiyyətlərini canlandırması, muğama xalqın dünyagörüşünün və psixologiyasının ən yüksək ifadəsi kimi yanaşması onun eyni zamanda estetik prinsiplərini də təcəssüm etdirirdi. Xalq ifaçılıq sənəti və bəstəkar yaradıcılığının qarşılaşdırılması, Şərq oxuma üslubu və Avropa təfəkkürünün əlaqələndirilməsi "Leyli və Məcnun" operasında birləşərək, muğam ifaçılığı sahəsinin inkişafının yeni məcraya yönəldilməsinə imkan yaratdı. Eyni zamanda Ü.Hacıbəylinin muğam improvizasiyasını artıq çoxdan formalaşmış çərçivədən çıxardaraq, Avropa musiqisində yaranmış opera janrına daxil etməsi öz növbəsində, muğam ifaçılığı sənətinin yeni laylarının yaranması ilə həyata keçirilmişdir.

Ü.Hacıbəylinin daha mühüm bir xidməti isə professional bəstəkarlıq məktəbinin təməlində muğam ifaçılıq sənətinin bitkinliyinə əsaslanması və milli əsərlərin yaradılması istiqamətində bu zəmindən istifadə etməsi idi. O, muğam operalarında ümumavropa formaları ilə milli ifaçılıq sənətinə xas olan ümumiləşdirmələr yaradaraq, xalq musiqi təfəkküründən yaranan prinsiplərin aşılanmasına nail olmuşdur.

Ü.Hacıbəyli muğam ifaçılıq sənətində düzgün oxuma üsullarına riayət olunmasının tərəfdarı idi və hətta lazım gələrsə, fikirlərini sərt şəkildə bildirirdi. O, muğamların ifası zamanı səciyyəvi xüsusiyyətlərin və bədii obrazlılığın açılmasını uyğun hesab edir və ifaçının savadlı tərzdə oxumasını üstün əlamət kimi müəyyənləşdirirdi. Bununla bağlı Ü.Hacıbəyli "Muğamat və xalq mahnılarının ifası haqqında" adlı məqaləsində yazır: "Əvvələn, muğamlar bir-birindən ayrılır. Məsələn, çahargahın bağışladığı təsir başqadır, o birisinin təsiri isə başqadır. Mən dəfələrlə demişəm ki, gərək bizim oxuyanlarımız muğamatın qədrini bilsinlər, elmi-təcrübi cəhətdən onları düzgün oxusunlar. Bunu bilməyənlər ya onun əhəmiyyətini başa düşmür, yaxud tənbəllikdən ürəklərində elə od yoxdur ki, onu öyrənsinlər və yaradıcılıq fantaziyasını bir az genişləndirsinlər" [2, s. 359]. Eyni zamanda muğam ifaçılıq sənətində Ü.Hacıbəyli ifaçıların, xanəndələrin ənənəvi şəkildə oxuma tərzini saxlamaqla, onların yeniliklər etməsini və bacardıqları dərəcədə çox çalışaraq dərinliklərə yiyələnmələrini əsas məqsəd kimi irəli sürürdü: "Bizdə muğamat oxuyanlar iki

cürdür: biri çoxdan oxuyanlar, o birisi - təzə oxuyanlardır. Təzə oxuyanlar elə bilirlər ki, hər nə oxusalar axırını gərək segah ilə qurtarsınlar. Axırda məlum olur ki, bu "Rast" oxuyur, "Bayatı-Şiraz" və yaxud başqa bir şey oxuyur" [2, s. 359]. "Bir dəfə mən radioya qulaq asırdım: "Rast" oxuyurdular. "Rast"ın "Zəminxara" yeri vardır; məlum oldu ki, onu yaddan çıxarıblar, onun yerinə "Şahnaz" oxuyurlar" – Üzeyir bəyin bu yanaşması onun xanəndələrin ifa tərzini diqqətlə izləməsini və eyni zamanda ifaçılıq sənətində hər hansı kənar müdaxilələrdən oxuma tərzinə üstünlük verməsinin göstəricisidir [2, s. 360]. Üzeyir bəyin fikrincə, muğamların ifası zamanı onların əsas xüsusiyyətləri nəzərdə saxlanılmalı, düzgünlüyün itirilməməsi vacib olmalıdır. O, klassik Azərbaycan muğamlarının orijinallığının qorunmasının doğru yanaşma olduğunu hesab edir, muğamın xarakterindən asılı olaraq, böyük məharətlə, mübariz səslə və iti zəngulələrlə oxuma üslubuna böyük əhəmiyyət verirdi. Ü.Hacıbəyli muğamların xüsusiyyətlərini, onların təsir məsələlərini araşdıraraq, hər bir muğamın özünəməxsusluğa malik olmasını bildirmişdir. Bu baxımdan Ü.Hacıbəyli muğamların ifaçılıq xüsusiyyətlərinin dolğunlaşdırılması ilə bağlı fikirlərini əsaslandıraraq, "Rast"ın dinləyiciyə böyük qüvvəsini, "Segah"ın isə sızıltı olmadan ən təbii şəkildə ifa olunmasını nəzərə çatdırırdı. Xüsusilə, "Bayatı-Şiraz" muğamının ifaçılığı ilə bağlı fikirlərində Üzeyir bəy onun xüsusi təsir qüvvəsini qeyd edərək, yersiz müdaxilələrdən uzaq olmasını məsləhət görürdü. "Bayatı-Şiraz"ın ifası zamanı instrumental ifaçıların improvizasiya hissələrinə diqqətlə yanaşmasını tələb edən Ü.Hacıbəyli ifa zamanı ustalıqla və cazibə ilə səslənmənin daha təsiredici olduğunu bildirirdi.

Xanəndələrin ifa tərzinin təhlil olunması və əsaslandırılmış şəkildə ustad xanəndələrlə bağlı fikirlərini bildirməsi Ü.Hacıbəylinin muğam sənətinə həssas yanaşmasının göstəricisi idi. Ü.Hacıbəyli ifaçılıq sənətində oxuma tərzi yeni mərhələ təşkil edən Cabbar Qaryağdıoğlunun ifasını yüksək qiymətləndirərək, dərin məzmunlu lirik qəzəllər üzərində ahəngdarlığını yüksək qiymətləndirirdi. Eyni zamanda ustad xanəndənin zəngin və orijinal repertuarla çıxışlarını diqqət mərkəzində saxlayan Ü.Hacıbəyli səhnədə uzun müddət onu görməyəndə təəssüf hissini də bildirirdi: "Köhnə oxuyanlardan bizim hörmətli xalq artistlərimizdən Cabbarı çox az eşidirik. Buna da çox təəssüf edirik" [2, s. 360]. Eyni zamanda Əlövsətin "Bayatı-Şiraz"ı oxuması, Sarabskinin muğam ifası zamanı ustalığı Ü.Hacıbəyli tərəfindən vurğulanmışdır. Xüsusilə, H.Sarabskinin

təvazökarlığını ifaçılıq sənətində vacib amil hesab edərək, onun tərif üçün deyil, məhz sənət naminə mükəmməl ifa etməsini məmnunniyyətlə dəyərləndirirdi.

Ü.Hacıbəyli muğam ifaçılığında coşğun zənguləlıəri, uzun nəfəsə malik olmanı yüksək qiymətləndirmiş, musiqi hafizəsinin genişliyini və ifaçılıq mədəniyyətini əsas amil kimi nümunə göstərmişdir. Amma Üzeyir bəyin təbirincə desək, "...Mən bunu əlbəttə ki, oxuyanları bir-birilə vuruşdurmaq üçün deyil, bir-birinə kömək etmək, bir-birindən öyrənmək məqsədilə deyirəm. Mənə belə gəlir ki, pis adətləri tərk etmək olar" fikirləri onun sərt tənqidlərinin əsas məramını – muğam ifaçılıq sənətinin inkişaf yolunun mükəmməlləşdirilməsi ilə bağlıdır [2, s. 360].

Muğam ifaçılıq sənətində söz sənəti, qəzəllərin məna dərinliyinin verilməsi Ü.Hacıbəylinin diqqət yetirdiyi məsələlərdən idi. Məharətlə seçilmiş qəzəllər, şirin ahəngdarlıqla oxuma üslubu, hər muğama uyğun qəzəlin axtarılıb üzə çıxarılması Ü.Hacıbəylinin ifaçılıq sənətinin inkişaf yollarını araşdırdığı məqalələrində əsas məsələ idi. Hazırki dövrdə də Üzeyir bəyin tənqidi yanaşmaları və muğamda qəzəlin istifadəsi ilə bağlı verdiyi təhlillər hələ də aktuallığını saxlayır: "... şeir oxunduqda onun daxili məzmunu ilə maraqlanmalıdır. ... Sözlər musiqiyə qoşulduqda, buna fikir verib, şeirin tələbinə görə oxunmalıdır. Bir də görürsən ki, xanəndə şeiri bir-birinin dalınca deyir: bir misra bu şeirdən, o biri misranı o biri şeirdən. Beləliklə, bütün şeir pozulur" [2, s. 360].

"Şərq musiqisinin gələcək tərəqqisi əmrində dəsgahların ən böyük əhəmiyyəti olacaqdır. Çünki, hər bir mövcud xalq havalarının hamısı bilistina dəsgahların pərdələrindən götürülmüşdür; deməli dəsgah pərdələri xaricində bir dənə də olsa mahnı tapmaq olmaz" – deyən Ü.Hacıbəyli ən çox ifa olunan muğamların "Rast", "Şur", "Çahargah", "Segah", "Mahur", "Rəhab", "Hümayun", "Bayatı-Şiraz", "Bayatı-Kürd" olduğunu göstərərək, onların müxtəlif şöbə və guşələrinin tam şəkildə səslənməsinin ifaçılıq sahəsinin zənginləşməsində əhəmiyyətini vurğulamışdır [2, s. 379].

İfaçılıq sənətində muğam üçlüklərinin fəaliyyəti də Ü.Hacıbəylinin məqalələrində işıqlandırdığı məsələlərdəndir. Bu barədə Ü.Hacıbəyli "Azərbaycan musiqi sənətinə bir nəzər" məqaləsində yazır: "Xanəndə və sazəndə dəstəsi əksər ovqat üç nəfərdən ibarət olar ki, onlardan biri oxuyar, təğənni edər, digəri "tar" və üçüncüsü isə "kamança" çalar; bu dəstənin əhli bütün muğam və dəsgahları bilməlidirlər; baxüsus xanəndə bir çox şeir, qəzəl və

təsniflər hifzində saxlamalıdır; tarçalan dəxi dəsgahların yollarını yaxşıca bilməlidir ki, xanəndəyə "rəhbərlik" etsin, yəni xanəndə bir "guşə"ni oxuduqdan sonra onun dalınca gələn guşəni çalıb xanəndəni qızışdırsın, kamançaçı isə əksərən tarçalanın dalınca gedir..." [2, s. 377]. Ü.Hacıbəyli ifaçıların hər zaman aydın düşünmələrini və savadlı olmalarını, tərifəlayiq şəkildə özünü göstərmələrini həm doğru, həm də məqsədəuyğun hesab edirdi.

Ü.Hacıbəyli xalq mahnılarının hər hansı zahiri bəzəklə deyil, olduğu kimi və dəyişilmədən ifa üslubuna üstünlük verirdi. Doğrudur, Ü.Hacıbəyli zaman keçdikcə, hər hansı bir xalq musiqi nümunəsində dəyişikliklərin baş verməsini reallıq olaraq qəbul etsə də, məzmun və melodik dilin xüsusiyyətlərinin dəyişdirilməsinə etiraz səsini ucaldırdı. Onun haqlı tənqidləri ifaçılıq sənətinin mükəmməlliyi naminə aparılan məqsədyönlü baxışları ilə bağlı idi: "Bəzi oxuyanlar xalq mahnısını – "Apardı sellər Saranı" düzgün oxumur. Sonra "Segah" oxuyanlar da onu elə uzadırlar ki, camaat da yatır. ... Bununla da mən demək istəmirəm ki, "Segah" oxumaq lazım deyil; ancaq bu cür "Segah" oxumaq üslubuna qarşı mübarizə aparmaq lazımdır" [2, s. 360].

Ü.Hacıbəyli ifaçılıq sənətində repertuar seçiminə də diqqətlə yanaşır və musiqinin təbliğ olunmasında düzgün seçilmiş əsərlərin əsas rol oynadığı qənaətində idi. O, repertuarın xalq yaradıcılığına əsaslanmasını dinləyici zövqünün formalaşmasında əhəmiyyət kəsb etdiyini hər zaman vurğulayırdı. Bununla əlaqədar Ü.Hacıbəyli yazır: "Repertuarımız nədən ibarətdir? Bizim repertuarımız əsasən el mahnılarından qurulur. Xor kollektivləri və yaxud tək-tək oxuyan oğlan və qızlar el mahnıları və muğamat ifa edirlər. Bu gün el mahnılarına və muğamata fikir verilməsi təbiidir. Lakin aşıq mahnıları və bəstəkarlarımızın da əsərləri repertuara daxil edilməlidir" [2, s. 358].

Aşıq ifaçılıq sənəti də Ü.Hacıbəylinin məqalələrində toxunduğu əsas məsələlərdən idi. Məlumdur ki, Ü.Hacıbəyli aşıq ifaçılıq sənətini professional bəstəkarlıq yaradıcılığına gətirməklə, bu sahədə yeni mərhələ açmışdır. Ü.Hacıbəylinin violin, violonçel və fortepiano üçün yazdığı "Aşıqsayağı" triosu (1931), ardınca yaradıcılığının şah əsəri olan "Koroğlu" operasında (1937) əsas qəhrəmanın yalnız mübariz kimi deyil, həm də aşıq obrazında da göstərilməsi onun aşıq sənətinin professional göstəricilərə cavab verərək, inkişaf etdirilməsi ideyaları ilə bağlı idi. Məlumdur ki, "Koroğlu" operasında aşıq musiqisinin üslub xüsusiyyətləri geniş həcmli opera formasında özünəməxsusluğunu itirməyərək təcəssümünü tapır. Bəstəkar Koroğlunun dili ilə, aşıq lirikasının bir

sıra janrlarından istifadə etməklə yanaşı, fərdi cəhətlərini də təqdim etməyə nail olur. "Gözəlləmə", "Qıratın tərifi", "Şikəstə" kimi musiqi nömrələrində aşıq musiqisinin janrları Ü.Hacıbəylinin yaradıcılığında təcəssümünü tapır.

Ü.Hacıbəyli "Koroğlu" operasında aşıq yaradıcılığının xüsusiyyətlərini verməklə, eyni zamanda bu sahənin də ifaçılıq məsələlərinə həssaslıqla yanaşır və onun inkişaf yolunun düzgün müəyyənləşdirilməsi üçün çalışırdı: "Onların sənəti şəhər musiqisinə yenilik gətirir, onu zənginləşdirir. Axır vaxtlarda aşıq sənəti daha çox hiss olunur. Ölkəmizdə elə bir hadisə olmur ki, aşıq ona cavab verməsin" [2, s. 362]. Aşıq ifaçıları ilə bağlı qələmə aldıqları Ü.Hacıbəylinin ifaçılıq sənəti ilə bağlı fikirlərinin xalq yaradıcılığının bütün sahələrini əhatə etməsinin göstəricisidir. "Aşıq dəstəsi dəxi əksərən üç nəfərdən olub, bunlardan biri həm oxuyar, həm də "saz" çalar, iki yerdə qalanı isə alət nəğmədən olan "balaban" çalar; balabançının ikisi "zü" tutan və yaxud "dəmkeş" deyirlər ki, bunun vəzifəsi hava çalmaq olmayıb, yalnız bir sədanı uzatmaqdan ibarətdir..." - deyən Ü.Hacıbəyli daha sonra hər bir ifaçının əsas vəzifəsini və ona uyğun olan göstərişlərini qeyd etmişdir [2, s. 377]. Eyni zamanda Ü.Hacıbəyli muğam və aşıq ifaçıları arasında olan fərqli xüsusiyyətləri göstərmiş və hər bir yaradıcılıq sahəsinə aid olan yanaşmalarını əsaslandırmışdır. 1938-ci ildə Aşıqların İkinci qurultayında bu sənətin ifaçılıq sənətinin inkişaf xüsusiyyətləri ilə bağlı çıxış edən Ü.Hacıbəyli bu sahənin xalq musiqi yaradıcılığında əhəmiyyətindən bəhs edərək, daha da yüksəlmək imkanlarını açıqlamış, nəzəri məsələlərin həlli yolunun ifaçılıq sənətinin təkmilləşməsində əhəmiyyətini vurğulamışdır.

Musiqi təbliğatının aparılmasının da ifaçılıq sahəsinin təkmilləşməsinə əhəmiyyəti Ü.Hacıbəyli tərəfindən aydın şəkildə vurğulanmışdır: "... radio konsertləri nümunəvi olmalıdır. hər bir çalan və oxuyan öz işinə məsuliyyətlə yanaşmalıdır. Musiqi təbliğində intizam daha artıq tələb olunur" [2, s. 362]. Eyni zamanda Ü.Hacıbəyli ifa zamanı, xüsusilə muğamın səslənməsində vaxt məhdudiyyətinin də mövcud olmasını diqqətə çatdırmış və bu məsələ ilə bağlı fikir bildirmişdir: "Muğamatı istədikdə 4 saat da oxumaq olar, istədikdə 5 dəqiqə içərisində də oxumaq olar. ... Halbuki bütün dəsgahı az vaxt içərisində qurtarmaq olar" [2, s. 361]. Bununla da Ü.Hacıbəylinin ifasında zaman müddətinin nəzərə alınmasına diqqəti yönəltmiş və ifaçılığın bütün tərəflərinə öz münasibətini bildirmişdir.

Ü.Hacıbəylinin ifaçılıq sənətinin inkişaf etdirilməsi ilə bağlı fikirləri yalnız xalq yaradıcılığı sahəsini əhatə etmir. Belə ki, Ü.Hacıbəylinin bədii

dünyagörüşü və novator axtarışları, həqiqi millilik və realizm prinsiplərini əlaqələndirərək inkişaf etdirməsi professional musiqinin bir çox sahələrinə nüfuz etmişdir. Bu baxımdan Ü.Hacıbəyli tərəfindən əvvəlcə Azərbaycan Dövlət Konservatoriyasında, daha sonra isə Filarmoniyada çoxsəsli xorun yaradılması ifaçılıq sahəsinin inkişaf etdirilməsi istiqamətində böyük mədəni hadisə kimi dəyərləndirilə bilər. 1931-ci ildə isə ilk notlu Xalq Çalğı Alətləri Orkestrinin təşkil olunması isə bəstəkarın milli alətlərin professional bəstəkar yaradıcılığında təşəkkül tapması ilə yanaşı, ifaçılıq sahəsində də mühüm addım oldu. Azərbaycan musiqi mədəniyyətinin inkişafında ifaçılıq sənətinin təkmilləşməsinin mühüm əhəmiyyətini dərk edən Ü.Hacıbəyli professional bəstəkarlıq sənəti ilə xalq yaradıcılığının üzvi vəhdətini daha uyğun hesab edirdi. Elə bunun nəticəsidir ki, Ü.Hacıbəyli estetik görüşlərini formalaşdıraraq, ifaçılıq sənətinin yaradıcı mövqeyini sərgiləmiş və bəstəkar yaradıcılığına daxil olmasına imkan yaratmışdır.

Xalq Çalğı Alətləri Orkestrinin yaradılmasını Ü.Hacıbəyli həm milli alətlərin bəstəkar yaradıcılığına daxil olması ilə əlaqələndirmiş, həm də özünəməxsus şəkildə obrazlılıqla ifadə edərək, Böyük Vətən Müharibəsi illərində orkestr səslənməsinə böyük ehtiyac olmasından irəli gəldiyini bildirmişdir: “Özünüz bilirsiniz ki, nəfəsli orkestr qoşun üçün nə qədər lazım olan vasitədir. Musiqi çalınan zaman əsgərlər nə qədər həvəslə, nizam-intizama tabe olaraq irəliləyirlər. Hərgah Azərbaycan tarixini nəzərdən keçirsəniz görəsiniz ki, vaxtilə qara zurna müharibə musiqi alətlərindən biri olmuşdur” [2, s. 357].

Simfonik orkestrin tərkibinə xalq çalğı alətlərini daxil edən Ü.Hacıbəyli ustalıqla istifadə etdiyi klassik tərkib ilə üzvi ahəngdarlıq yaratmağa nail olmuşdur. O, instrumental və milli-xalq formalarını əlaqələndirərək, ifaçılıq sənətinə xas xüsusiyyətləri canlandırmışdır. Bunun nəticəsində, Ü.Hacıbəyli parlaq üslub novatorluğuna nail olaraq, Avropa musiqisində mövcud olan formalarda milli musiqi təfəkkürünün sintezini yaratmışdır.

Ü.Hacıbəyli dühasının aydın təcəssümü professor Fərəh Əliyevanın fikirlərində aydın və məntiqəuyğun şəkildə təsdiqlənir: “Böyük bəstəkar milli musiqi sənətinin qarşısında duran, zamanın irəli sürdüyü zəruri problemləri ümumdünya musiqi proseslərinin məcrasında həll edərək, Qərb və Şərq musiqisi münasibətlərində yeni mərhələnin əsasını qoymuşdur. ... Üzeyir Hacıbəylinin yaradıcılığında, musiqi xadimi kimi fəaliyyətində milli ənənələrə dayaqlanaraq,

özünəməxsusluğu və səciyyəviliyi saxlamaq şərtilə, yeni inkişaf səviyyəsinə qalxmağa imkan verən Avropa mədəniyyətinin məqbul formalarından faydalanmaq mövqeyi strateji xarakter daşıyırdı. Məqalələrinin birində yazdığı kimi, "böyük bir qayeyi-əməl vardır ki, o da Şərq musiqisini tərəqqi edib Qərb musiqisinin bu gün işğal etməkdə olduğu uca mərtəbələrə qədər irəliləməkdir". "Uca mərtəbələrə" aparan yolun bir tərəfi milli musiqi, o biri tərəfi Qərb ənənələri idi" [1, s. 357]. Bu fikirlərin davamı kimi bildirmək istərdik ki, Ü.Hacıbəylinin milli ifaçılıq sənətinin inkişafında nail olduğu xüsusiyyətlər məhz bəstəkar yaradıcılığı ilə bağlılığın yaradılması və yeni inkişafa istiqamətləndirilməsindən irəli gəlirdi. Ü.Hacıbəylinin ifaçılığın müxtəlif sahələri ilə əlaqədar olan məqalələrindəki tənqidi fikirlər və əsaslandırdığı tutarlı dəlillər xalq yaradıcılığı ənənələrinin professional səviyyədə qorunub saxlanılmasına yönəldilmişdir. O, hər vasitə ilə xalq ifaçılığı sənətinin savadlı və mükəmməl səviyyəsini tələb edir, yeri gəldikcə özünün sərt münasibətini də bildirərək, inkişaf yollarının nizamlı şəkildə davam etdirilməsinə çalışırdı.

XX əsr Azərbaycan musiqi mədəniyyətində ifaçılıq sənətinin inkişaf məcrasını dəyişməyə nail olan Üzeyir Hacıbəyli çoxəsrlik ənənələri yeni, daha fərqli tərzdə ifadə etməyə nail oldu. Ü.Hacıbəyli milli ifaçılıq sənətinin ənənəvi inkişaf yolunu yeni səviyyəyə yönəldərək, ənənələrin imkanlarını genişləndirdi, onun fərdiliyini məqsədyönlü istiqamətə yönəltdi. Ü.Hacıbəyli dühasının nəticəsi idi ki, milli musiqi mədəniyyətində yeni şaxənin yaranması ifaçılıq fəaliyyəti növlərinə estetik baxışları formalaşdırdı. Azərbaycan milli musiqi mədəniyyətinin inkişafı kontekstində bəstəkarın humanist baxışlarının həm yaradıcılığına təsir etməsi, həm də mütərəqqi ideyaları özündə əks etdirməsi bilavasitə xalq yaradıcılığının intonasiya özünəməxsusluğunu özündə birləşdirmişdir. Ü.Hacıbəylinin cəsarətli mövqedən çıxış etməsi musiqi mədəniyyətinin bütün sahələrində olduğu kimi, ifaçılıq sahəsində də dönüş yaratmağa nail olmuş və elmi-publisistik məqalələri ilə yanaşı, əsərlərində də prinsip və fikirlərini təsdiqləmişdir.

## Ədəbiyyat siyahısı

1. Əliyeva F.Ş. Üzeyir Hacıbəyli – şəxsiyyət və cəmiyyət. Bakı: Şərq-Qərb, 2014, 368 s.

2. Hacıbəyli Ü.Ə. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Şərq-Qərb, 2005, 456 s.

3. Üzeyir Hacıbəyli ensiklopediyası. Bakı: Şərq-Qərb, 2007, 264 s.
4. Üzeyir Hacıbəyli (məqalə, oçerk, esse, arxiv materialları). Bakı: Şərq-Qərb, 2014, 280 s.

**Тогрул Мирназим оглу Асадуллаев**

**Национальное исполнительское искусство в творчестве Узеира Гаджибейли**

**Резюме:** В представленной статье рассматриваются вопросы становления и развития национального исполнительского искусства в творчестве великого композитора, классика азербайджанской профессиональной музыкальной культуры Узеира Гаджибейли, а также его роль в этой области. В статье освещаются идеи и концепции Узеира Гаджибейли в области исполнительского искусства, а также его взгляды на ашугское и мугамное исполнительское искусство. Основное содержание статьи составляет исследование опоры Узеира Гаджибейли на народное творчество и умелое использование им особенностей национального исполнительского искусства. Научная новизна статьи заключается в выяснении отношения У.Гаджибейли к национальному исполнительскому искусству на основе его научных и публицистических статей. Определение взглядов и идей У.Гаджибейли относительно национального исполнительского искусства составляет научную значимость статьи.

**Ключевые слова:** Узеир Гаджибейли, композитор, национальные традиции, исполнительское искусство, ашугское творчество, мугам

**Toghrul Mirnazim oghlu Asadullayev**

**National Performing Art in the Work of Uzeyir Hajibeyli**

**Summary:** The presented article discusses the issues of the formation and development of national performing art in the work of the great composer, classic of Azerbaijani professional musical culture Uzeyir Hajibeyli, and examines his role in this field. The article highlights U.Hajibeyli's ideas and concepts regarding performing art, as well as his views on ashug and mugham performing art. The main content of the article is the study of U.Hajibeyli's reliance on folk creativity and skillful use of the features of national performing art. The scientific novelty of the article is the clarification of U.Hajibeyli's attitude to national performing arts, based on his scientific and journalistic

articles. The determination of U.Hajibeyli's views and ideas on national performing arts constitutes the scientific significance of the article.

**Key words:** Uzeyir Hajibeyli, composer, national traditions, performing art, ashug creativity, mugham

Məqalənin redaksiyaya daxilolma tarixi: 05.11.2025
Məqalənin çapa qəbul olunma tarixi:18.11.2025